# Ətraf mühitin mühafizəsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun ətraf mühitin mühafizəsinin hüquqi, iqtisadi və sosial əsaslarını müəyyən edir. Qanunun məqsədi ətraf mühitin ekoloji tarazlığının mühafizəsi sahəsində ekoloji təhlükəsizliyin təmin edilməsindən, təbii ekoloji sistemlərə təsərrüfat və başqa fəaliyyətin zərərli təsirinin qarşısının alınmasından, bioloji müxtəlifliyin qorunub saxlanılmasından və təbabətdən istifadənin səmərəli təşkilindən ibarətdir.

Bu Qanun ətraf mühitin keyfiyyətinin yaxşılaşdırılması, təbii ehtiyatların səmərəli istifadəsi və bərpası, ətraf mühitin mühafizəsi sahəsində qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi məqsədilə cəmiyyətlə təbiətin qarşılıqlı əlaqəsini tənzimləyir.

## I fəsil

## ÜMUMİ MÜDDƏALAR

M a d d ə 1 . **Əsas terminlər və anlayışlar**

Bu qanunda aşağıdakı əsas termin və anlayışlardan istifadə edilir:

ətraf mühit - insan fəaliyyətindən asılı olmayaraq onu əhatə edən canlı və cansız təbiətin məcmusu;

ekologiya - ətraf mühitin tarazlığını və bu tarazlığın pozulmasına təsir edən təbii amillər və antropogen (insan fəaliyyəti) və fiziki proseslər öyrənən elm;

təbii resurslar (ehtiyatlar) - insanların ehtiyaclarını ödəmək üçün ətraf mühitdə mövcud olan torpaq, faydalı qazıntılar, bitki örtüyü, flora, fauna, su və enerji mənbələri;

ətraf mühitin mühafizəsi - ətraf mühitdə təbii mövcud olan maddi varlıqların ilkin kəmiyyət və keyfiyyətcə dəyişmələrə yol verilməməsi, qorunub saxlanması;

təbiətdən istifadə - gələcək nəsillərin ehtiyacını nəzərə almaqla, cəmiyyətin sosial-iqtisadi tələblərini ödəmək məqsədilə ətraf mühitin ekoloji razılığının pozulmasına yol verilmədən təbii resurslardan səmərəli və qənaətlə istifadə edilməsi;

ətraf mühitin monitorinqi - təbii və antropogen təsirlər nəticəsində ətraf mühitə yayılan zərərli qaz, maye və bərk haldakı tullantılara kəmiyyət və keyfiyyət cəhətdən nəzarətin elmi əsaslarla həyata keçirilməsi;

ekoloji sistem - qarşılıqlı təsirdə olan ətraf mühitin tərkib hissəsini təşkil edən: bitki örtüyü, flora, heyvanlar aləmi, fauna, torpaq, su hövzələri və çaylar, mineral sərvətlər, hava və enerji mənbələrinin vəhdətidir;

ətraf mühitin ekoloji tarazlığının normallaşdırılması - insan yaşayışı üçün ətraf mühitin yararlı olmasını müəyyən edən və bioloji müxtəlifliyin qorunub saxlanmasının, ekoloji sistemlərin sabit istifadəsini təmin edən ətraf mühitin keyfiyyət göstəricilərinin müəyyən edilməsi;

ətraf mühitə zərərli təsir - ekoloji sistemin ayrı-ayrı komponentlərinin kəmiyyət və keyfiyyətcə dəyişməsinə, ekoloji tarazlığın pozulmasına səbəb olan kimyəvi və bioloji, zərərli fiziki, texniki, dağ-mədən işlərində texnologiyanın pozulması, təbii resurslardan israfçılıqla istifadə edilməsi ilə müşayiət olunan fəaliyyət;

ətraf mühitin keyfiyyət göstəriciləri - səlahiyyətli dövlət orqanları tərəfindən təsdiq edilmiş insan sağlamlığını və ətraf mühitin mühafizəsini təmin edən normativ texniki sənədlərin və standartların tələblərinə cavab verən məhsullar və ətraf mühitin tarazlığının ilkin göstəriciləri;

*ekoloji ekspertiza – ekoloji ekspertiza obyektlərinin ətraf mühitə təsirini müəyyən etmək məqsədi ilə həmin obyektlərin müvafiq standartda, texniki reqlamentdə və digər normativ hüquqi aktda müəyyən olunmuş ekoloji tələblərə uyğunluğunun və realizəsinin mümkünlüyünün əvvəlcədən qiymətləndirilməsi;*[1]

*dövlət ekoloji ekspertizası – müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən bu Qanunla müəyyən edilmiş qaydada və hallarda aparılan ekoloji ekspertiza;*

*ictimai ekoloji ekspertiza – fiziki şəxslər, qeyri-hökumət təşkilatları, vətəndaşların təşəbbüs qrupları və bələdiyyələrin məhəllə komitələri (bundan sonra – ictimai ekoloji ekspertizanın təşkilatçıları) tərəfindən bu Qanunun tələbləri nəzərə alınmaqla aparılan ekoloji ekspertiza;*

*dövlət ekoloji ekspertizasının rəyi (bundan sonra – ekoloji ekspertiza rəyi) – dövlət ekoloji ekspertizasının nəticələrinə dair rəsmi sənəd;*

*ictimai ekoloji ekspertiza rəyi – ictimai ekoloji ekspertizanın nəticələrinə dair tövsiyə xarakterli sənəd.*

*Bu Qanunda istifadə olunan digər anlayışlar "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında", "Ekoloji təhlükəsizlik haqqında", "Lisenziyalar və icazələr haqqında", "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının qanunları və başqa normativ hüquqi aktlar ilə müəyyən edilmiş mənaları verir.*[2]

M a d d ə 2 . **Ətraf mühitin mühafizəsi sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi**

*2.1.* Ətraf mühitin mühafizəsi sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanun və digər normativ hüquqi aktlardan ibarətdir.

*2.2. Ələt azad iqtisadi zonasında ətraf mühitin mühafizəsi sahəsində münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.*[3]

M a d d ə 3 . **Ətraf mühitin mühafizəsinin əsas prinsipləri**

Ətraf mühitin mühafizəsi aşağıdakı prinsiplərə əsaslanır:

sosial-iqtisadi, mənəvi-estetik problemlərin qarşılıqlı həlli;

ərazilərdə ekoloji tarazlığın təmin edilməsi və pozulmuş təbii ekoloji sistemlərin bərpası;

təbii ehtiyatların səmərəli istifadə olunması və bərpası, təbiətdən istifadənin və ətraf mühitin mühafizəsinin iqtisadi stimullaşdırılmasının tətbiq edilməsi;

ətraf mühitin bioloji müxtəlifliyinin qorunmasının təmin edilməsi;

dövlət nəzarəti, *bu Qanunun və ətraf mühitin mühafizəsi sahəsində digər normativ hüquqi aktların* pozulmasına görə məsuliyyət;[4]

ətraf mühitə zərər vurulmasının qarşısının alınması və vurulan zərərin qiymətləndirilməsi;

ətraf mühitin mühafizəsi sahəsində əhalinin və *vətəndaş cəmiyyəti institutlarının* iştirakı; [5]
ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq əməkdaşlıq;

*ekoloji ekspertizaya təqdim olunan məlumatların dolğunluğu və düzgünlüyü;* [6]
*ekoloji ekspertizanın həyata keçirilməsində qanunçuluğun, aşkarlığın və şəffaflığın təmin edilməsi;*
*təbiətdən tənzimlənməyən istifadənin potensial təhlükəliliyinin nəzərə alınması;*
*ətraf mühitin mühafizəsi tədbirləri barədə əhalinin məlumatlandırılması.*

II fəsil

## ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ SAHƏSİNDƏ HÜQUQLAR VƏ VƏZİFƏLƏR

Maddə 4. **Ətraf mühitin mühafizəsi sahəsində dövlətin hüquqları və vəzifələri**

1. Ətraf mühitin mühafizəsi sahəsində dövlətin hüquqları:
1.1. dövlət siyasətinin əsas istiqamətlərini, onun həyata keçirilməsi üçün strateji tədbirləri hazırlamaq;
1.2. ətraf mühitin mühafizəsi sahəsində təsərrüfat və başqa fəaliyyətin ekoloji tarazlığa olan keyfiyyət normativlərini işləmək və təsdiq edilməsi qaydalarını müəyyən etmək;
1.3. ətraf mühitin mühafizəsinin dövlət fondları haqqında əsasnamələri təsdiq etmək;
1.4. qanunvericiliyə müvafiq olaraq təbii resursların istifadəyə verilməsi haqqında qərarları qəbul etmək, təbiətdən istifadəyə görə limitləri və kvotaları müəyyən etmək, müqavilələri (kontraktları) bağlamaq;
~~1.5. təbiətdən istifadəçilərə (sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərə) lazımi xüsusi icazənin verilməsi üçün təbiətdən istifadə formalarının siyahısını və bu xüsusi icazələrin verilməsi qaydalarını təsdiq etmək;~~ [7]
1.6. təbiətin mühafizəsinin müxtəlif hallarına dair konsepsiyaları, təbii
resursların istifadəsi, mühafizəsi və bərpasına dair kompleks proqramları təsdiq etmək və həyata keçirilmək, təbii ehtiyatların dövlət kadastrının və dövlət uçotunun aparılması qaydalarını müəyyən etmək;
1.7. ətraf mühitin və təbii ehtiyatların dövlət monitorinqinin aparılması qaydalarını müəyyən etmək;
1.8. ~~təsərrüfat fəaliyyətinin ekoloji cəhətdən təhlükəli formalarının siyahısını, onlara xüsusi icazə verilməsi qaydalarını, həmçinin~~ ətraf mühitin mühafizəsi sahəsində məcburi standartlaşdırılan və sertifikatlaşdırılan *ekoloji cəhətdən təhlükəli* məhsulların (işlərin, xidmətlərin) siyahısını təsdiq etmək; [8]
1.9. xüsusi elmi-ekoloji və bioloji əhəmiyyətli ətraf mühitin mühafizəsi obyektlərinin siyahısını təsdiq etmək, dövlət qoruqlarını, dövlət milli və təbiət parklarını, başqa xüsusi mühafizə tələb edən ərazilərini və obyektlərini təşkil etmək;
1.10. ətraf mühitin mühafizəsi sahəsində informasiyanın verilməsi və dövlət statistikasının aparılması qaydalarını müəyyən etmək;
1.11. ekoloji auditor fəaliyyətinin aparılması qaydalarını müəyyən etmək;
*1.12. təbiətdən istifadə ilə bağlı “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş lisenziya və icazələri vermək, bu Qanunun 15-ci maddəsinə uyğun olaraq müqavilələr bağlamaq.* [9]
1.13. ətraf mühitin mühafizəsi və sağlamlaşdırılması sahəsində xərcləri təsdiq etməkdir.
2. Ətraf mühitin mühafizəsi sahəsində dövlətin vəzifələri:
2.1. ətraf mühitin ekoloji tarazlıq və təbiətdən istifadənin müxtəlif sahələri üzrə proqramları hazırlamaq;
2.2. dövlət ekoloji ekspertizasını təşkil etmək;
2.3. ətraf mühitin, heyvanlar və bitki aləminin mühafizəsinə, bərpasına və istifadəsinə dövlət nəzarətini həyata keçirmək;
2.3-1. “Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, genetik modifikasiya olunmuş bitkilərin, eləcə də müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarının idxalına və dövriyyəsinə dövlət nəzarətini həyata keçirmək; [10]
2.4. heyvanlar və bitki aləminin nadir və yer üzündən yox olması təhlükəsinə məruz qalmış növlərinin dövlət kadastrını aparmaq ("Qırmızı kitab"ı nəşr etmək);
2.5. beynəlxalq əməkdaşlığı həyata keçirmək;
2.6. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun digər vəzifələri həyata keçirməkdir.

Maddə 5. **Ətraf mühitin mühafizəsi sahəsində yerli özünüidarəetmə orqanlarının səlahiyyətləri**

Ətraf mühitin mühafizəsi sahəsində yerli özünüidarəetmə orqanları müvafiq qanunvericiliklə onlara verilmiş səlahiyyətləri həyata keçirirlər.

Maddə 6. **Ətraf mühitin mühafizəsi sahəsində vətəndaşların hüquqları və vəzifələri**

1. Ətraf mühitin mühafizəsi sahəsində vətəndaşların, vətəndaşlığı olmayan şəxslərin və əcnəbilərin (bundan sonra vətəndaşların) hüquqları:
1.1. hər bir vətəndaş həyatı və sağlamlığı üçün əlverişli ətraf mühitin olması, onun vəziyyəti və vəziyyətinin yaxşılaşdırılması barədə tədbirlər haqqında dəqiq məlumat almaq;
1.2. ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulması nəticəsində onların sağlamlığına və əmlakına vurulan zərərə görə ödənc almaq;
1.3. sağlamlıq və həyat üçün əlverişli olan ətraf təbii mühitdə yaşamaq;
1.4. müəyyən edilmiş qaydada təbii resurslardan istifadə etmək, onların mühafizəsi və bərpası üzrə tədbirləri həyata keçirmək, ətraf mühitin mühafizəsində və sağlamlaşdırılmasında iştirak etmək;
1.5. qanunvericilikdə müəyyən edilmiş qaydada ətraf mühitin mühafizəsinə aid yığıncaqlarda, mitinqlərdə, piketlərdə, yürüşlərdə və nümayişlərdə, referendumlarda iştirak etmək;
1.6. ətraf mühitin mühafizəsinə dair dövlət hakimiyyət orqanlarına və təşkilatlarına müraciət etmək;
1.7. ictimai ekoloji ekspertiza haqqında təkliflər vermək;
1.8. insan həyatına və ətraf mühitə mənfi təsir göstərən müəssisələrin, qurğuların və başqa ekoloji zərərli obyektlərin yerləşdirilməsi, tikintisi, yenidən qurulması və istismara verilməsi haqqında qərarların inzibati və ya məhkəmə qaydasında ləğv edilməsini və həmçinin fiziki və hüquqi şəxslərin fəaliyyətinin məhdudlaşdırılmasını, müvəqqəti dayandırılmasını və hüquqi şəxslərin ləğv edilməsini tələb etmək;

1.9. ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulması nəticəsində təqsirkar təşkilatların, vəzifəli şəxslərin və vətəndaşların məsuliyyətə cəlb edilməsi barədə müvafiq orqanlar və məhkəmələr qarşısında iddialar qaldırmaq;
1.10. qanunvericilikdə nəzərdə tutulan başqa hüquqlarını müəyyən edilmiş qaydada həyata keçirmək.
2. Ətraf mühiti qorumaq hər bir kəsin vəzifəsidir.

M a d d ə 7 . **Ətraf mühitin mühafizəsi sahəsində ictimai birliklərin hüquqları və vəzifələri**

1. İctimai birliklərin ətraf mühitin mühafizəsi sahəsində hüquqları:
1.1. özünün ekoloji proqramlarını işləmək və təbliğ etmək, ətraf mühitin mühafizəsi sahəsində vətəndaşların hüquqlarını və maraqlarını müdafiə etmək, onları bu işdə fəaliyyətə cəlb etmək;
1.2. ətraf mühitin mühafizəsi sahəsində ictimai nəzarəti həyata keçirmək;
1.3. dövlət orqanlarından və təşkilatlarından ətraf mühitin vəziyyətinə və onun bərpasına dair tədbirlər barədə vaxtında, tam və dəqiq məlumat almaq;
1.4. müəyyən işlərin yerinə yetirilməsi üzrə qanunvericiliklə nəzərdə tutulmuş ətraf mühitin mühafizəsi sahəsində dövlət orqanları və beynəlxalq təşkilatlar ilə müqavilə əsasında əməkdaşlıq etmək;
1.5. ətraf mühitin mühafizəsi sahəsində qanun layihələrinin müzakirəsində iştirak etmək;
1.6. inzibati və məhkəmə qaydasında ekoloji cəhətdən zərərli müəssisələrin, tikililərin və qurğuların yerləşdirilməsi, tikintisi, yenidən qurulması və istismara verilməsi, o cümlədən ətraf mühitə və insanların sağlamlığına mənfi təsir göstərən təsərrüfat fəaliyyətinin məhdudlaşdırılması, müvəqqəti və daimi dayandırılmasını tələb etmək;
1.7. təqsirkar təşkilatların, vəzifəli şəxslərin və vətəndaşların məsuliyyətə cəlb edilməsi barədə məsələləri qaldırmaq;
1.8. ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulması nəticəsində vətəndaşların sağlamlığına və əmlakına vurulmuş zərərin ödənilməsi haqqında iddiaları məhkəməyə təqdim etmək.
2. İctimai birliklərin vəzifələri öz fəaliyyətini ətraf mühitin mühafizəsi və ictimai birliklər haqqında qanunlara uyğun həyata keçirməkdən ibarətdir.

## I I I f ə s i l

## TƏBİƏTDƏN İSTİFADƏ

M a d d ə 8 . **Təbiətdən istifadəçilər**

Təbiətdən istifadəçilər hüquqi və fiziki şəxslər (xarici istifadəçilər də daxil olmaqla), dövlət, qeyri-dövlət təşkilatları, daimi və müvəqqəti, ilkin və təkrar istifadəçilər ola bilərlər:
xarici istifadəçilər - xarici hüquqi və fiziki şəxslər, beynəlxalq birliklər və təşkilatlar;
daimi istifadəçilər - təbiətdən istifadə hüququ müddətsiz verilən istifadəçilər;
müvəqqəti istifadəçilər - təbiətdən istifadə hüququ müəyyən edən müddətə verilən istifadəçilər;
ilkin istifadəçilər - təbiətdən istifadə hüququnu dövlətdən birbaşa alan istifadəçilər;
təkrar istifadəçilər - təbiətdən ilkin istifadəçidən müqavilə əsasında hüquq alan istifadəçilərdir.

M a d d ə 9 . **Təbiətdən ümumi və fərdi istifadə**

1. Azərbaycan Respublikasında təbii resurslar ümumi və fərdi istifadədə ola bilər.
2. Təbiətdən ümumi istifadə əhalinin həyatının zəruri tələbatının ödənilməsi üçün vətəndaşlara və təşkilatlara təbii resursların ödənişsiz istifadə etmək şərti ilə həyata keçirilir. Qanunvericilikdə nəzərdə tutulduğu hallarda, təbiətdən istifadəyə məhdudiyyətlər qoyulmasına yol verilir.
3. Təbiətdən fərdi istifadə zamanı təbii resurslar istifadəçilərə qanunvericiliklə müəyyən edilmiş qaydada verilir. Təbiətdən fərdi istifadə daimi və ya müvəqqəti, ödənişli və ya əvəzsiz, ilkin və ya təkrar ola bilər.
4. Təbiətdən fərdi istifadə və ya təbiətdən məhdud istifadə (servitutlar) hüquqlarının yaranması Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir.

M a d d ə 1 0 . **Təbiətdən istifadənin normallaşdırılmasına görə limitlər və kvotalar**

Təbiətdən istifadənin normallaşdırılmasına görə limitlər və kvotalar müəyyən müddət üçün təbii resursların istifadəsinin, ətraf mühitə atılan zərərli maddələrin, məişət və istehsalat tullantılarının yerləşdirilməsinin son hədlərini müəyyən edir.
Limitlər və kvotalar müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

*M a d d ə 1 1 .* ***Təbiətdən istifadə sahəsində lisenziya və icazə***[11]

*11.1. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təbiətdən istifadə sahəsində lisenziya və ya icazə tələb olunan müvafiq fəaliyyət növləri və ya hərəkətlər belə lisenziya və ya icazə alındıqdan sonra həyata keçirilir.*
*11.2. Təbiətdən istifadə sahəsində lisenziya və icazə "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq "bir pəncərə" prinsipi əsasında verilir.*

M a d d ə 1 2 . **Təbiətdən istifadənin dövlət tənzimlənməsi**

Dövlət təbii resursların istifadəsini, bərpasını və mühafizəsini tənzimləyir. Bu məqsədlə dövlət proqramları tərtib edilir, təbii resursların kadastrı, monitorinqi və uçotu aparılır.

M a d d ə 1 3 . **Təbiətdən istifadəçilərin vəzifələri və hüquqları**

1. Təbiətdən istifadəçilərin vəzifələri:
1.1. təsərrüfat və digər fəaliyyətlər üçün müəyyən edilmiş ekoloji və texnoloji tələblərə, qüvvədə olan standartlara və ətraf mühitin kəmiyyət, keyfiyyət normativlərinə riayət etmək;
1.2. ətraf mühitin mühafizəsi və təbii resursların bərpası üzrə tədbirləri müəyyən edilmiş qaydada həyata keçirmək;
1.3. təbii resurslardan istifadəyə, ətraf mühitin çirkləndirilməsinə görə müəyyən edilmiş ödəniş və cərimələri vaxtında ödəmək;

1.4. ətraf mühitin mühafizəsi sahəsində dövlət nəzarətini həyata keçirən orqanların tələbi ilə lazımi məlumatı təqdim etmək.

2. Təbiətdən istifadəçilərin hüquqları:

2.1. təbii resurslardan məqsədli, təyinatı üzrə istifadə etmək;

2.2. ətraf mühitə zərər vurmadan ayrılmış təbii resurslardan qənaətlə istifadə etmək.

3. Təbiətdən istifadəçilərin hüquqları qanunla qorunur. Təbiətdən istifadəçilərin pozulmuş hüquqları Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada bərpa edilməlidir.

~~M a d d ə 1 4 . **Təbiətdən istifadə ilə əlaqədar xüsusi icazə tələb olunan fəaliyyət növləri**~~ [12]

~~Təbii resursların ayrı-ayrı növlərindən istifadəyə, habelə aşağıdakı fəaliyyət növlərinin həyata keçirilməsinə xüsusi icazə tələb olunur:~~

~~ətraf mühiti çirkləndirən maddələrin toplanmasına;~~

~~xüsusi təhlükəli olan istehsalat və məişət tullantılarının daşınması, basdırılması və saxlanılmasına~~;

~~ekoloji auditor fəaliyyətinə;~~

~~ekoloji cəhətdən təhlükə törədə bilən təsərrüfat fəaliyyətinə.~~

M a d d ə 1 5 . **Təbii resurslardan istifadə müqavilələri**

1. *Qanunla* nəzərdə tutulduğu hallarda və müəyyən edilmiş qaydada təbiətdən istifadəçi ilə müvafiq icra hakimiyyəti orqanı arasında təbii resurslardan istifadəyə görə müqavilə (kontrakt) bağlanır. [13]

2. Təbii resurslardan istifadə üçün ~~xüsusi~~ icazə tələb olunduğu halda təbiətdən istifadəçinin belə icazəsi olmadıqda təbii resurslardan istifadə müqaviləsi (kontraktı) etibarsızdır. [14]

3. *İcazə* ilə ziddiyyət təşkil edən müqavilənin (kontraktın) şərtləri etibarsızdır. *İcazə ləğv edilərsə*, müqavilə (kontrakt) etibarsız hesab olunur. [15]

~~4. Təbii resurslardan istifadə müqaviləsi (kontraktı) ətraf mühitin mühafizəsi sahəsində müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırıldıqdan sonra qüvvəyə minir.~~ [16]

I V f ə s i l

## ƏTRAF MÜHİTİN, TƏBİİ EHTİYATLARIN DÖVLƏT KADASTRI VƏ MONİTORİNQİ, STANDARTLAŞDIRMA VƏ SERTİFİKATLAŞDIRMA

M a d d ə 1 6 . **Təbii ehtiyatların dövlət kadastrı**

Ekoloji vəziyyətin qorunması, iqtisadiyyatın tələbatını ödəmək üçün təbii ehtiyatların kəmiyyət və keyfiyyət göstəricilərini müəyyən etmək məqsədilə təbii ehtiyatların vahid sistem üzrə dövlət kadastrı aparılır.

Dövlət kadastrı aparılan sahələr müvafiq qanunvericiliklə müəyyən edilir. Bu sahələr üzrə dövlət kadastrının aparılması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş əsasnamə ilə müəyyən edilir.

M a d d ə 1 7 . **Ətraf mühitin və təbii ehtiyatların dövlət monitorinqi**

1. Azərbaycan Respublikasında ətraf mühitin və təbii ehtiyatların dövlət monitorinqi sistemi yaradılır və fəaliyyət göstərir.

2. Ətraf mühitin və təbii ehtiyatların dövlət monitorinqi ətraf mühitin mühafizəsi və təbiətdən istifadənin idarə olunması, ona nəzarəti təmin edir, müvafiq məlumat bankları və informasiya sistemlərinin yaradılmasını nəzərdə tutur. Dövlət monitorinqi aşağıdakıları əhatə edir:

2.1. Ətraf mühitin və təbii ehtiyatların vəziyyəti və onlara antropogen təsir edən mənbələrin üzərində müşahidələr;

2.2. ekzogen proseslərin yayılması, inkişafı və dinamikasını öyrənmək üçün müşahidələr;

2.3. ərazilərin seysmik fəallığını öyrənmək və zəlzələlərin proqnozunu vermək üçün müşahidələr;

2.4. müşahidə obyektlərinin vəziyyətinin qiymətləndirilməsi və onların ilkin şəraitə nəzərən dəyişmənin araşdırılması.

3. Ətraf mühitin və təbii ehtiyatların dövlət monitorinqinin aparılması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunmuş əsasnamə ilə müəyyən edilir.

M a d d ə 1 8 . **Ətraf mühitin müəssisə (istehsalat) monitorinqi**

1. Hüquqi şəxslər (təbiətdən istifadələr) ətraf mühitin müəssisə (istehsalat) monitorinqini, onların həyata keçirdiyi ekoloji cəhətdən təhlükə törədə bilən təsərrüfat fəaliyyətinin ətraf mühitə təsirinin uçotunu və hesabatını aparmağa borcludurlar.

2. Ətraf mühitin müəssisə (istehsalat) monitorinqində istifadə edilən ölçü vasitələri standartlaşdırmanın və metrologiyanın tələblərinə uyğun olmalıdır.

3. Müəssisə (istehsalat) monitorinqinin göstəriciləri barədə hesabat ətraf mühitin mühafizəsi sahəsində Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarına, onlarla razılaşdırılmış müddətlərdə təqdim edilir.

M a d d ə 1 9 . **Ətraf mühitin mühafizəsi sahəsində standartlaşdırma və sertifikatlaşdırma obyektləri**

Ətraf mühitin mühafizəsi sahəsində standartlaşdırma və sertifikatlaşdırma obyektlərinə ekoloji təhlükəsizlik, əhalinin həyat və sağlamlığına, təbii resursların bərpasına və səmərəli istifadəsinə təhlükə yarada biləcək Azərbaycan Respublikasında istehsal olunan və ya onun ərazisinə gətirilən məhsullar (işlər, xidmətlər) və texnologiyalar aid edilir.

M a d d ə 2 0 . **Ətraf mühitin mühafizəsi sahəsində standartlaşdırma**

1. Ətraf mühitin mühafizəsi sahəsində Azərbaycan Respublikasının standartları və texniki tələbləri qanunvericiliklə müəyyən edilmiş qaydada qeydiyyatdan keçir, təsdiq və tətbiq edilir.

2. Ətraf mühitin mühafizəsi sahəsində mövcud standartların və texniki tələblərin pozulması ilə məhsulların (məmulatların) işlənilməsi, hazırlanması, təchiz edilməsi (satışı), saxlanılması, nəql edilməsi, istifadəsi (istismarı) və təmiri, işlərin və xidmətlərin yerinə yetirilməsi qadağan edilir.

M a d d ə 2 1 . **Ətraf mühitin mühafizəsi sahəsində sertifikatlaşdırma**

Ətraf mühitin mühafizəsi sahəsində *malın (xidmətin, işin), prosesin, idarəetmə sisteminin və işçi heyətinin müvafiq standartda, texniki reqlamentdə və digər normativ hüquqi aktda müəyyən olunmuş tələblərə* uyğunluğunun müəyyən edilməsi

üçün *"Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq akkreditasiya olunmuş uyğunluğu qiymətləndirən qurum tərəfindən* sertifikatlaşdırma həyata keçirilir.[17]

Ətraf mühitin mühafizəsi sahəsində məcburi sertifikatlaşdırılmalı olan məhsulların (işlərin, xidmətlərin) müvafiq sertifikatı olmadıqda, onların istehsalı (yerinə yetirilməsi) qadağan edilir.

V fəsil

## ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ SAHƏSİNDƏ İQTİSADİ TƏNZİMLƏMƏ

### Maddə 22. Ətraf mühitin mühafizəsinin iqtisadi əsasları

1. Təbiəti mühafizəni təmin etməyin və təbiətdən istifadəni tənzimləməyin iqtisadi əsasları ekoloji təhlükəsizlik, təbii resurslardan səmərəli istifadə, onların bərpası və artırılması tədbirlərinin işlənib hazırlanmasına, planlaşdırılmasına və yerinə yetirilməsinə təbiətdən istifadəçilərin maddi marağını artırmaqdır.

2. Ətraf mühitin mühafizəsinin fəaliyyət sahələri və iqtisadi əsasları:

2.1. ətraf mühitin mühafizəsi sahəsində tədbirlərin proqnozlaşdırılması və maliyyələşdirilməsi;

2.2. təbiətdən istifadəyə görə ödəmələr;

2.3. ətraf mühitin çirkləndirilməsinə görə ödəmələr və cərimələr;

2.4. ətraf mühitin mühafizəsi sahəsində iqtisadi maraqlandırma;

2.5. ətraf mühitin mühafizəsi fondlarının yaradılması; qrantlar;

2.6. beynəlxalq qurumlardan ekoloji proqramları həyata keçirmək məqsədilə ayrılan vəsaitlər.

3. Ətraf mühitin çirkləndirilməsinə görə müəssisələrdən, təşkilatlardan və vətəndaşlardan alınan cərimələr bir qayda olaraq ətraf mühitin mühafizəsi sahəsində tədbirlərin maliyyələşdirilməsinə sərf edilir.

### Maddə 23. Ətraf mühitin mühafizəsi sahəsində tədbirlərin proqnozlaşdırılması və maliyyələşdirilməsi

1. Ətraf mühitin mühafizəsi sahəsində tədbirlər müvafiq proqramlarda nəzərə alınır, təbiətdən istifadənin müxtəlif istiqamətləri üzrə dövlət proqramlarına və konsepsiyalarına daxil edilir.

2. Təbiətdən istifadənin müxtəlif istiqamətləri üzrə ekoloji proqramların və konsepsiyaların işlənilməsi qaydaları Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir.

3. Ətraf mühitin mühafizəsi sahəsində ekoloji proqramların və tədbirlərin maliyyələşdirilməsi aşağıdakı mənbələr hesabına həyata keçirilir:

3.1. dövlət büdcəsi və yerli büdcələr;

3.2. ətraf mühitin mühafizəsi fondlarının vəsaitləri;

~~3.3. ekoloji sığortanın vəsaitləri hesabına;~~[18]

3.4. təbiətdən istifadəyə görə ödəmələr;

3.5. hüquqi və fiziki şəxslərin könüllü ianələri;

3.6. qrantlar və beynəlxalq qurumların digər ayırmaları hesabına.

4. Ətraf mühitin mühafizəsi sahəsində tədbirlərin maliyyələşdirilməsi bütün səviyyələrdə olan büdcələrdə ayrıca göstərilir.

### Maddə 24. Ətraf mühitin çirkləndirilməsinə və təbii resurslardan istifadəyə görə ödənişlər

1. Ətraf mühitin çirkləndirilməsinə, istehsalat və məişət tullantılarının yerləşdirilməsinə, habelə təbii resurslardan istifadəyə görə ödənişlər qanunvericiliklə müəyyən edilmiş qaydada və məbləğdə təbiətdən istifadəçi olan müəssisələrdən, təşkilatlardan və vətəndaşlardan alınır.

2. Ətraf mühitin müəyyən edilmiş limitlərdən artıq çirkləndirilməsinə görə cərimələr qanunvericilikdə müəyyən edilən qaydada və məbləğdə alınır.

### Maddə 25. Ətraf mühitin mühafizəsi sahəsində iqtisadi stimullaşdırma

Ətraf mühitin mühafizəsinin iqtisadi stimullaşdırılması ekoloji yönümlü subsidiyalar və digər stimullaşdırıcı tədbirlər vasitəsi ilə həyata keçirilir.

Ətraf mühitin mühafizəsinin iqtisadi stimullaşdırılması qanunvericiliyə zidd olmayan tədbirlərin köməyi ilə də həyata keçirilə bilər.

### Maddə 26. Ətraf mühitin mühafizəsi sahəsində sığorta[19]

1. Təbii resurslardan istifadə zamanı ətraf mühitə və üçüncü şəxslərə zərərin vurulmasına görə təbii resurslardan istifadəçi olan hüquqi və fiziki şəxslər mülki məsuliyyətini könüllü qaydada sığorta edə bilərlər.

2. Daşınmaz əmlakın istismarı nəticəsində üçüncü şəxslərin sağlamlığına və əmlakına dəyə biləcək zərərlə bağlı daşınmaz əmlak sahiblərinin mülki məsuliyyətinin sığortası "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq icbari qaydada həyata keçirilir.

### Maddə 27. Ətraf mühitin mühafizəsi üzrə fondlar

1. Ətraf mühitin mühafizəsi üzrə fondlar ətraf mühitin mühafizəsində təxirəsalınmaz tədbirlərin, ona vurulan zərərin aradan qaldırılmasının və kompensasiya verilməsinin, *yaşıllıqları mühafizə tədbirlərinin,* ətraf mühitin mühafizəsi sahəsində başqa tədbirlərin maliyyələşdirilməsi üçün yaradılır.[20]

2. Ətraf mühitin mühafizəsi sahəsində qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət və ictimai fondları yaradıla bilər.

3. Ətraf mühitin mühafizəsi üzrə dövlət fondu təbiətdən istifadəyə görə ödəmələr, ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulmasına görə alınan cərimələr, qanunvericilikdə müəyyən edilmiş qaydada müsadirə edilən ovçuluq və balıqçılıq alətlərinin və qeyri-qanuni əldə edilən məhsulların satışından daxil olan vəsaitlər, *yaşıllıqların götürülməsinə (kəsilməsinə), zədələnməsinə və ya məhv edilməsinə görə ödənilən bərpa dəyəri,* qrantlar, könüllü ianələr, habelə Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan başqa daxilolmalar hesabına təşkil edilir.[21]

*4. Ətraf mühitin mühafizəsi üzrə dövlət funduna daxil olan vəsaitin 7 faizi dövlət büdcəsinə köçürülür.*[22]

M a d d ə  2 8 . **Ətraf mühitin mühafizəsində dövlət fondlarından istifadə**

1. Ətraf mühitin mühafizəsi üzrə dövlət fondunun vəsaitləri aşağıdakı tədbirlər üçün istifadə edilir:

1.1. elmi-tədqiqat işlərinə, resursqənaətedici və ekoloji təmiz texnologiyalarının tətbiqinə;

1.2. təbiətdən istifadəçilər tərəfindən həyata keçirilən təbiətin mühafizəsi obyektlərinin tikintisinin, yenidən qurulmasının maliyyələşdirilməsinə;

1.3. ətraf mühitin çirklənməsi nəticəsində dəymiş ziyanın bərpası sahəsində həyata keçirilən tədbirlərə;

1.4. çirklənmə və başqa mənfi təsirlər nəticəsində vətəndaşların sağlamlığına və ətraf mühitə vurulmuş zərərin bərpasına görə onlara müəyyən edilmiş kompensasiyanın verilməsinə;

1.5. ətraf mühitin pozulmuş ekoloji tarazlığının bərpasına, proqram, layihələrin, normativ-metodiki sənədlərin işlənməsinə və həyata keçirilməsinə;

1.6. ekoloji maarifləndirmə və təhsilə;[23]

1.7. xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin mühafizəsinə;**[24]**

*1.7-1. yaşıllıqları mühafizə tədbirlərinin maliyyələşdirilməsinə;***[25]**

1.8. nadir və nəsli kəsilməkdə olan fauna və flora növlərinin mühafizəsinə və bərpasına;

1.9. ətraf mühitin mühafizəsi sahəsində dövlət orqanlarının maddi-texniki bazasının yaradılmasına və inkişafına;

1.10. ətraf mühitin dövlət monitorinqinin təşkili və keçirilməsinə, dövlət kadastrının aparılmasına;[26]

1.11. ətraf mühitin mühafizəsi sahəsində çalışan mütəxəssislərin həvəsləndirilməsi məqsədilə onların maddi stimullaşdırılmasına.

2. Ətraf mühitin mühafizəsi fondlarının vəsaitlərinin ətraf mühitin mühafizəsi ilə aidiyyatı olmayan məqsədlərə xərclənməsi qadağandır.

M a d d ə  2 9 . Ətraf mühitin mühafizəsinin ictimai fondları

Ətraf mühitin mühafizəsinin ictimai fondları ictimai birliklərin vəsaiti, qrantlar, fiziki və hüquqi şəxslərin könüllü ianələri, habelə Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan başqa daxilolmalar hesabına təşkil edilir. Bu fondlar ictimai birliklər tərəfindən yaradılır, ətraf mühitin mühafizəsinə, təbiətdən səmərəli və kompleks istifadə ilə əlaqədar işlərə və tədbirlərə sərf olunur.

İctimai fondların yaradılması, onların vəsaitlərinin formalaşması və xərclənməsi qaydaları qanunvericiliyə uyğun olaraq müvafiq ictimai birliklərin təsdiq etdikləri əsasnamələrdə (nizamnamələrdə) müəyyən edilir.

V I  f ə s i l

## ƏTRAF MÜHİTİN EKOLOJİ TARAZLIĞININ NİZAMLANMASI

M a d d ə  3 0 . **Ətraf mühitin ekoloji tarazlığının pozulma dərəcəsinin nizamlanması**

1. Ətraf mühitin ekoloji cəhətdən tarazlığının nizamlanmasının məqsədi ekoloji təhlükəsizliyin və əhalinin sağlamlığının qorunmasına zəmanət verən, təbii ehtiyatların səmərəli istifadəsini və bərpasını, ətraf mühitin çirklənməsinin qarşısının alınmasını təmin edən elmi əsaslandırılmış ətraf mühitə yol verilə bilən təsir normalarının müəyyən edilməsidir.

2. Ətraf mühitin ekoloji tarazlığının pozulma dərəcəsinin nizamlanmasına:

2.1. ətraf mühitin keyfiyyət göstəricilərinin insanın sağlamlığına, təbii resursların səmərəli istifadəsinə, mühafizəsinə və bərpasına zərərli təsirin müəyyən edilməsi;

2.2. ətraf mühitə zərərli təsirin yol verilə bilən son həddi səviyyəsinin müəyyən edilməsi aiddir.

3. Ətraf mühitin müəyyən edilmiş keyfiyyət normativlərinin azaldılmış normalarla əvəz edilməsinə~~xüsusi~~ icazə verilmir. **[27]**

~~4. Konkret ekoloji şəraitdən asılı olaraq normativ göstəricilərin mənfi istiqamətə doğru dəyişdirilməsinə xüsusi icazə verilə bilər.~~ **[28]**

5. Ətraf mühitin təsdiq edilmiş keyfiyyət normativləri bütün hüquqi və fiziki şəxslər üçün məcburidir. Bu normativlər mətbuatda dərc olunmalı və yayılmalıdır.

M a d d ə  3 1 . **Ətraf mühitin keyfiyyət normativlərinin əsas göstəriciləri**

1. Ətraf mühitin keyfiyyət normativlərinin əsas göstəricilərinə:

1.1. ətraf mühitə atılan və axıdılan zərərli maddələrin miqdarının, səs-küyün, vibrasiyanın, elektromaqnit şüalanmasının və başqa zərərli fiziki təsirlərin, radiasiya təsiri səviyyəsinin, kənd təsərrüfatı və meşə təsərrüfatında aqrokimyəvi maddələrin miqdarının tətbiqinin yol verilə bilən son hədləri;

1.2. ətraf mühitdə zərərli maddələrin konsentrasiyasının yol verilə bilən qatılıq həddi;

1.3. mühafizə, sanitariya-mühafizə və digər qoruq zonalarının vəziyyəti aid edilir.

2. Azərbaycan Respublikasının qanunvericiliyi ətraf mühitin başqa keyfiyyət normativlərini də nəzərdə tuta bilər. Çirklənmənin göstəriciləri normativ sənədlərdə göstərilməlidir.

M a d d ə  3 2 . **Ətraf mühitə atılan və axıdılan zərərli maddələrin yol verilə bilən miqdarının normalaşdırılması**

1. Əhalinin sağlamlığının, bitki və heyvanlar aləminin mühafizəsi, onların genetik fondunun qorunması məqsədilə, atmosferi, suyu, torpağı və yerin təkini çirkləndirən potensial təhlükəli kimyəvi və bioloji maddələrin yol verilə bilən miqdarının normativləri müəyyən edilir.

2. Müvafiq ərazilərdə bütün çirklənmə mənbələrinin əhalinin sağlamlığına, bitki və heyvanlar aləminə təsiri nəzərə alınmaqla ətraf mühitin çirklənməsinin qarşısını almaq məqsədilə hər bir çirklənmə mənbəyi üzrə ətraf mühitə atılan, axıdılan və basdırılan zərərli maddələrin yol verilə bilən normativlərinin son hədləri müəyyən edilir.

3. Əhalinin sağlamlığın və əmək qabiliyyətinin qorunması, bitki və heyvanlar aləmi üçün əlverişli olan ətraf mühitin mühafizəsi məqsədilə səs-küyün, vibrasiyanın, elektromaqnit sahələrinin səviyyəsinin, radioaktiv şüalanmanın və başqa zərərli fiziki təsirlərin yol verilə bilən son hədləri normativləri müəyyən edilir.

M a d d ə  3 3 . **Kənd və meşə təsərrüfatında aqrotexniki tədbirlərin və aqrokimyəvi maddələrin tətbiqinin nizamlanması**

İnsan sağlamlığı və genetik fondun, bitki və heyvanlar aləminin mühafizəsi məqsədilə kənd və meşə təsərrüfatlarında mineral

gübrələrin, bitkilərin mühafizəsi üçün kimyəvi vasitələr və stimulyatorların, başqa aqrokimyəvi maddələrin müəyyən olunmuş həddinin, aqrotexniki tədbirlərin tətbiqinin artıq olmasına yol verilmir.

M a d d ə  3 4 . **Sanitariya-mühafizə və digər mühafizə zonaları**

Ətraf mühitə və xüsusi mühafizə olunan təbii obyektlərə və ərazilərə zərərli təsirlərin qarşısının alınması məqsədilə sanitariya-mühafizə, digər mühafizə zonaları müəyyən edilir.

Sanitariya-mühafizə və digər mühafizə zonaları və onlardan istifadə qaydaları qanunvericiliyə uyğun müəyyən edilir.

V I I  f ə s i l

## TƏSƏRRÜFAT VƏ DİGƏR FƏALİYYƏT SAHƏLƏRİNƏ EKOLOJİ TƏLƏBLƏR

M a d d ə  3 5 . **Təbii resurslardan istifadə zamanı ekoloji tələblər**

Torpaqdan, yerin təkindən, havadan, su hövzələrindən, meşələrdən və başqa bitkilərdən, heyvanlar aləmindən, müstəsna ekoloji, elmi və mədəni dəyərə malik olan ətraf mühit obyektlərindən, xüsusi mühafizə olunan təbiət ərazilərindən və ekoloji fəlakət şəraitli olan ərazilərdən istifadədə ekoloji tələblər normativ hüquqi aktlarla tənzimlənir.

Təbii ekoloji tarazlıqda olan sistemlərin pozulmasına səbəb olan, habelə insanın, bitki və heyvanlar aləminin genetik fondunun məhv edilməsinə, əhalinin həyat və sağlamlığı üçün təhlükəli olan fəaliyyətlərə ~~xüsusi~~ icazə verilmir.[29]

M a d d ə  3 6 . **Layihələşdirməyə ekoloji tələblər**

Yaşayış məntəqələrinin, sənaye və kənd təsərrüfatı obyektlərinin və qurğularının, su təchizatı və kanalizasiya sistemlərinin, hidrotexniki qurğuların, nəqliyyat və rabitə vasitələrinin, texnoloji proseslərin və avadanlıqların, başqa obyektlərin layihələşdirilməsində ətraf mühitin keyfiyyət normativləri nəzərə alınmalı, tullantıların zərərsizləşdirilməsi və istifadəsi, tullantısız və ay tullantılı texnologiyalar və istehsalatlar, ətraf mühitin çirklənməsinin qarşısını alan səmərəli tədbirlər nəzərə alınmalıdır.[30]

M a d d ə  3 7 . **Müəssisələrin, qurğuların və istehsal obyektlərinin yerləşdirilməsinə ekoloji tələblər**

Müəssisələrin, qurğuların və istehsal obyektlərinin yerləşdirildiyi ərazilər ətraf mühitin mühafizəsi, təbii resursların səmərəli istifadə və bərpa şərtləri, qaydaları gözlənilməklə göstərilən obyektlərin fəaliyyətinin ekoloji aqibəti nəzərə alınaraq müəyyən edilir.

Müəssisələr, qurğular və başqa istehsal obyektləri yerləşdirildikdə, sanitariya-mühafizə və digər mühafizə zonaları müəyyən edilir.

M a d d ə  3 8 . **Müəssisələrin, qurğuların və başqa obyektlərin tikintisinə və yenidən qurulmasına ekoloji tələblər**

Müəssisələrin, qurğuların və başqa obyektlərin tikintisi və yenidən qurulması zamanı ətraf mühitin keyfiyyət normativlərinə riayət olunmalıdır. Təsdiq edilmiş layihənin və ya işlərin smeta sənədlərində göstərilmiş dəyərinin ətraf mühitin zərərinə olaraq dəyişdirilməsinə yol verilmir.

Tikinti işləri aparıldıqda torpaqların rekultivasiyası, təbii resursların bərpası və səmərəli istifadəsi, ərazilərin abadlaşdırılması və ətraf mühitin sağlamlaşdırılması üzrə tədbirlər görülməlidir.

M a d d ə  3 9 . **İflas dövründə ekoloji tələblər və öhdəliklər**

1. Təbiətdən istifadəçi olan hüquqi şəxsin (müəssisənin) iflası haqqında iş qaldırıldıqda onun ekoloji vəziyyəti yoxlanılır.

Ekoloji vəziyyətin yoxlanılması əmlak inzibatçısı tərəfindən təmin edilir.

2. Müəssisənin iflası haqqında işin icraatı zamanı ekoloji öhdəliklər üzrə kreditorların maraqları nəzərə alınmalıdır.

M a d d ə  4 0 . **Təbiətdən istifadəçi ləğv olunduqda və yenidən təşkil edildikdə ekoloji tələblərin və öhdəliklərin nəzərə alınması**

1. Təbiətdən istifadəçinin ləğvi və yenidən təşkil edilməsi onun vəziyyətinin yoxlanılması haqqında məlumatın və (və ya) ekoloji ekspertizanın əsasında ekoloji tələblər nəzərə alınmaqla həyata keçirilir və ləğvetmə aktında (balansında) həmin yoxlamanın (ekspertizanın) nəticələri göstərilir.

2. Ləğv edilən və ya yenidən təşkil edilən təbiətdən istifadəçinin ekoloji vəziyyətinin yoxlanılması *müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) nümayəndələrinin* iştirakı ilə həyata keçirilir.[31]

3. Təbiətdən istifadəçi yenidən təşkil edildiyi halda ekoloji öhdəliklər onun hüquqi varisinə keçir.

4. Təbiətdən istifadəçi ləğv edilərkən ekoloji öhdəliklər üzrə kreditorların maraqları nəzərə alınmalıdır.

M a d d ə  4 1 . **Müəssisələr, qurğular və başqa obyektlər istismara verildikdə və istismar müddətində ekoloji tələblər**

Müəssisələrin, qurğuların və başqa obyektlərin istismarı ətraf mühitin mühafizəsi üzrə layihədə göstərilmiş bütün ekoloji tələblərin tam həcmdə yerinə yetirilməsi şərti ilə həyata keçirilir.

Son hədləri yol verilən normativlər səviyyəsində zərərli maddələrin və tullantıların zərərsizləşdirilməsi və istifadə edilməsi üzrə təmizləyici qurğularla və avadanlıqlarla təmin edilməyən, təbii resursların səmərəli istifadəsi, bərpası və torpaqların rekultivasiyası üzrə layihələşdirmə işləri başa çatdırılmadıqda müəssisələrin, qurğuların və başqa obyektlərin istismara verilməsi qadağan edilir.

M a d d ə  4 2 . **Sənaye, energetika, nəqliyyat və rabitə obyektlərinin, kənd təsərrüfatı təyinatlı və meliorasiya obyektlərinin istismarına ekoloji tələblər**

1. Sənaye, energetika, nəqliyyat və rabitə obyektlərinin, kənd təsərrüfatı təyinatlı obyektlərin istismarı və meliorasiya işlərində ətraf mühitin çirklənməsini qarşısını alan təmizləyici qurğular və sanitariya-mühafizə zonaları, ekoloji əsaslandırılmış texnologiyalar və müəyyən edilmiş ekoloji tələblər nəzərə alınmaqla həyata keçirilir. Onlar tullantıların və maddələrin qalıqlarının tullantılarının təmizlənməsi, zərərsizləşdirilməsi və istifadə edilməsi üçün səmərəli vasitələrlə təchiz edilməli, təhlükəsiz yanacaq növlərini tətbiq etməli, təbii resursları qənaətlə və səmərəli istifadə etməli və ekoloji təhlükəsizlik üzrə tədbirlər görülməlidirlər.[32]

2. Əhali sıx olan ərazilərdə, seysmik təhlükəli zonalarda, tarixi və təbiət abidələri yerləşən ərazilərdə, əhalinin ənənəvi istirahət

və müalicə yerlərində atom elektrik stansiyalarının tikintisi qadağan edilir.

3. Atmosfer havasına atılan zəhərli qazların miqdarının azaldılması məqsədilə magistral avtomobil yollarında daimi fəaliyyət göstərən, lazımi avadanlıqlarla təchiz edilmiş ekoloji postlar yaradılır.

M a d d ə 4 3 . **Şəhərsalma və başqa yaşayış məntəqələrin tikintisinə ekoloji tələblər**

Şəhərlərin və başqa yaşayış məntəqələrinin layihələşdirilməsi, tikintisi və yenidən qurulmasında əhalinin yaşayışı və istirahəti ilə əlaqədar əlverişli şəraitlərin təmin edilməsi üçün ətraf mühitin mühafizəsi sahəsində qanunvericiliyə uyğun olaraq ekoloji tələblər nəzərə alınmalıdır.

Şəhərlərin və başqa yaşayış məntəqələrinin layihələşdirilməsində və tikintisində məişət-kommunal tullantılarının yığılması, emalı, zərərsizləşdiriləsi, istifadəsi və basdırılması nəzərdə tutulmalı və həyata keçirilməlidir. Böyük şəhərlər və sənaye mərkəzləri nəzdində təbiətdən istifadə etmək qaydaları ilə meşə-park, yaşıl zonalar və qoruqlar yaradılmalıdır.

M a d d ə 4 4 . **Radioaktiv maddələrlə iş zamanı ekoloji tələblər**

1. Müəssisə, idarə və təşkilatlar, vətəndaşlar radioaktiv maddələrin daşınması və basdırılmasının, istifadəsi və saxlanılmasının, nəql edilməsinin, istehsalının müəyyən edilmiş qaydalarını gözləməyə, radiasiya təhlükəsinin yol verilən son həddi normativlərinin pozulmasına yol verilməməsinə, ətraf mühitin radioaktiv çirklənməsinin qarşısının alınması və aradan qaldırılması üzrə tədbirlər götürməyə borcludurlar.

2. Radioaktiv tullantıların daşınması, təkrar emalı və basdırılması dövlət hakimiyyəti orqanının müəyyən etdiyi ərazidə və onun səlahiyyətli nümayəndəsinin mütləq iştirakı ilə həyata keçirilir.

*2-1. Radioaktiv və ionlaşdırıcı şüalar verən maddələrin tullantılarının zərərsizləşdirilməsi (basdırılması), emalı sahəsində müəssisələrin, habelə bu fəaliyyətlə bağlı digər obyektlərin layihələndirilməsi və fəaliyyəti zamanı ətraf mühitə təsirin qiymətləndirilməsi “Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında” və “Əhalinin radiasiya təhlükəsizliyi haqqında” Azərbaycan Respublikası qanunlarının tələblərinə uyğun həyata keçirilir.*[33]

3. Qanunvericiliklə nəzərdə tutulmuş hallar istisna olmaqla, radioaktiv tullantıların və maddələrin saxlanılması və ya basdırılması məqsədilə onların başqa ölkələrdən Azərbaycan Respublikasına gətirilməsi və respublika ərazisindən tranzit yolu ilə aparılması qadağandır. Radioaktiv maddələrin ətraf mühitə yayılmasını istisna edən tədbirlər aparılmadan, radioaktiv tullantıların və materialların yerin təkində basdırılması (yerləşdirilməsi) qadağandır.

4. Ətraf mühitin radioaktiv çirklənməsi aşkar edildikdə bu barədə müvafiq orqanlara dərhal məlumat verilməlidir.

M a d d ə 4 5 . **Potensial təhlükəli kimyəvi və bioloji maddələrin istehsalına və istifadəsinə verilən ekoloji tələblər**

Potensial təhlükəli kimyəvi və bioloji maddələrin istehsalına və tətbiqinə zəruri toksikoloji-gigiyena, toksikoloji-ekoloji tədqiqatlar aparıldıqdan, gigiyena və ekoloji normativlər müəyyən edildikdən və bu maddələrin *qanunla müəyyən edilmiş* qaydada dövlət qeydiyyatından keçdikdən sonra *“Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq lisenziya və ya icazə* verilir.[34]

Yerli şəraitə məxsus olmayan və həmçinin süni yolla alınan bioloji obyektlərin ətraf mühitdə yerləşdirilməsi və çoxaldılmasına müvafiq ekoloji əsaslandırmalar *olmadan yol verilmir.*[35]

M a d d ə 4 6 . **Ətraf mühitin zərərli ~~fiziki~~ təsirdən mühafizəsi**

Təşkilatlar, vətəndaşlar istehsalat, ictimai və yaşayış yerlərində, küçələrdə, əhalinin istirahət etdiyi, canlıların məskunlaşdığı yerlərdə səs-küyün, vibrasiyanın, elektromaqnit şüalanmanın və başqa zərərli ~~fiziki~~ təsirlərin qarşısının alınması və aradan qaldırılması üzrə zəruri tədbirlər görməlidirlər.

Şəhərlərin və başqa yaşayış məntəqələrinin planlaşdırılmasında və tikintisində, istehsalat və başqa obyektlərin layihələşdirilməsində, tikintisində və yenidən qurulmasında, yeni texnologiyanın, nəqliyyat və rabitə vasitələrinin yaradılmasında ətraf mühitin ekoloji tarazlığının qorunması nəzərə alınmalıdır.

*Qalınlığı 15 mikrona qədər olan polietilen torbaların, habelə birdəfəlik istifadə üçün nəzərdə tutulan plastik qarışdırıcı çubuq, çəngəl, qaşıq, bıçaq, boşqab və stəkanların sahibkarlar tərəfindən idxalı, istehsalı, həmçinin ticarət, ictimai iaşə və digər xidmət obyektlərində istehlakçıya satılması və ya verilməsi qadağandır.*[36]

M a d d ə 4 7 . **Ətraf mühitin istehsalat və məişət tullantılarından mühafizəsi**

1. İstehsalat və məişət tullantılarının toplanması, məhv edilməsi və basdırılması müvafiq icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının razılığı ilə müəyyən edilən yerlərdə aparılır.

2. Tullantıların emalı, basdırılması və ya saxlanılması üçün Azərbaycan Respublikasına gətirilməsi*beynəlxalq müqavilələrlə müəyyən edilmiş qaydada* həyata keçirilə bilər.[37]

3. İstifadə edildikdən sonra tullantıların zərərsizləşdirilməsi və istifadəsi üçün texnologiyası olmayan məhsulun idxalı qadağan edilir.

4. İstehsalat və məişət tullantılarının uçotu qanunvericiliklə müəyyən edilmiş qaydada aparılır.

5. Tullantılara verilən ekoloji tələblər bu Qanunla yanaşı tullantılar haqqında normativ hüquqi aktlarla müəyyən edilir.

M a d d ə 4 8 . **Hərbi və müdafiə obyektlərinə ekoloji tələblər**

Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş xüsusi hallar istisna olmaqla, bu Qanunda müəyyən edilən ekoloji tələblər tam həcmdə hərbi və müdafiə obyektlərinə şamil edilir.

M a d d ə 4 9 . **Yer kürəsi iqliminin və atmosferin ozon təbəqəsinin mühafizəsi**

Yer kürəsi iqliminin və ozon təbəqəsinin mühafizəsi ölkənin qanunvericiliyi və Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilələrlə (sazişlərlə) tənzimlənir.

V I I I f ə s i l

## EKOLOJİ EKSPERTİZA

M a d d ə 5 0 . **Ekoloji ekspertiza**

Ekoloji ekspertiza təsərrüfat fəaliyyətinin ətraf mühitə ola bilən mənfi təsirinin və onlarla bağlı nəticələrin aşkar edilməsi, qarşısının alınması və proqnozlaşdırılması məqsədilə ətraf mühitin keyfiyyət normativlərinə və ekoloji tələblərə uyğunluğunun müəyyən edilməsidir.

*Ekoloji ekspertiza dövlət və ictimai ekoloji ekspertiza formalarında həyata keçirilir.*[38]

*M a d d ə 5 1 .* ***Ekoloji ekspertizanın məqsəd və vəzifələri***[39]

*1. Ekoloji ekspertizanın əsas məqsədi ekoloji ekspertiza obyektlərinin ətraf mühitə və insan sağlamlığına birbaşa və ya dolayı mənfi təsirinin və onlarla bağlı nəticələrin aşkar edilməsi, qarşısının alınması və proqnozlaşdırılmasından, qəbul olunan qərarların ekoloji təhlükəsizlik dərəcəsini və ətraf mühitin mühafizəsi üzrə tədbirlərin səmərəsini müəyyən etməkdən ibarətdir.*

*2. Ekoloji ekspertizanın vəzifələri aşağıdakılardır:*

*2.1. ekoloji ekspertiza obyektlərinin ekoloji təhlükəsizlik səviyyəsini və ətraf mühitə potensial təsirini tam, hərtərəfli və elmi əsaslandırılmış təhlil əsasında qiymətləndirmək;*

*2.2. ətraf mühitə bilavasitə və ya dolayısı ilə təsir göstərə biləcək qərarların qəbul edilməsinin qarşısını almaq;*

*2.3. ekoloji ekspertiza obyektlərinin ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadə sahəsində normativ hüquqi aktlara uyğunluğunu müəyyən etmək;*

*2.4. ətraf mühitin mühafizəsi üzrə tədbirlərin səmərəliliyini, dolğunluğunu və tamlığını qiymətləndirmək və onların ekoloji tələblərə uyğunluğunu müəyyən etmək;*

*2.5. ekoloji ekspertiza obyektlərinin ətraf mühitə potensial təsiri və onun nəticələri barədə maraqlı şəxsləri məlumatlandırmaq.*

*M a d d ə 5 2 .* ***Dövlət ekoloji ekspertizasına dair tələblər***

*1. Dövlət ekoloji ekspertizası bu Qanunun 54-cü maddəsində göstərilən obyektlərə münasibətdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.*

*2. Dövlət ekoloji ekspertizasının həyata keçirilməsi qaydası, "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.*

*3. Təsərrüfat fəaliyyəti yerin təkindən istifadə ilə bağlı olduqda, həmin fəaliyyətə dair dövlət ekoloji ekspertizası bu işlər "Yerin təki haqqında" Azərbaycan Respublikasının Qanununun 27-ci maddəsinə uyğun olaraq dövlət uçotuna və dövlət qeydiyyatına alındıqdan sonra aparılır.*

*4. Dövlət ekoloji ekspertizasının obyektləri barədə ekoloji ekspertiza rəyi olmadan sənaye və ərzaq məhsullarının istehsalı, işlərin, xidmətlərin yerinə yetirilməsi və ya Azərbaycan Respublikasının ərazisinə gətirilməsi qadağandır.*

*5. Dövlət ekoloji ekspertiza obyektləri xüsusi mühafizə olunan təbiət ərazilərinə və obyektlərinə yaxın ərazilərlə bağlı olduqda, dövlət ekoloji ekspertizası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) nümayəndələrinin iştirakı ilə aparılır.*

*6. Dövlət ekoloji ekspertizası həyata keçirilərkən aşağıdakılar rəhbər tutulur:*

*6.1. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklər;*

*6.2. ekoloji ekspertiza obyektlərinin ətraf mühitə təsirinin kompleks (sosial-iqtisadi, ekoloji) qiymətləndirilməsinin nəticələri;*

*6.3. ekoloji tarazlığın, genofondun və canlı təbiətin müxtəlifliyinin qorunub saxlanılmasının təmin edilməsi zərurəti;*

*6.4. dövlət ekoloji ekspertizasının keyfiyyətinin və ekoloji ekspertiza rəyinin tərəflərin mövqelərindən asılılığının yolverilməzliyi;*

*6.5. dövlət ekoloji ekspertizası metodologiyasının inkişafı və təkmilləşdirilməsi üçün şəraitin yaradılması zərurəti.*

*7. İrihəcmli və mürəkkəb ekoloji ekspertiza obyektlərinin, habelə transsərhəd təsirə malik olan ekoloji ekspertiza obyektlərinin dövlət ekoloji ekspertizasının həyata keçirilməsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən Ekspert Komissiyası təşkil olunur.*

*8. Ekoloji ekspertiza obyektlərinin realizəsi zamanı onların transsərhəd təsiri müəyyən edildikdə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) ekspert komissiyasının fəaliyyətinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırmaqla maraqlı ölkələrin mütəxəssislərini və beynəlxalq ekspertləri cəlb edir.*

*9. Ekspert Komissiyasının səlahiyyətləri, fəaliyyət qaydası və tərkibi, onun fəaliyyətinə cəlb edilən ekspertlərə dair tələblər, ekspertlərin hüquq və vəzifələri, habelə dövlət ekoloji ekspertizasının həyata keçirilməsinə beynəlxalq ekspertlərin cəlb edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən Əsasnamə ilə tənzimlənir.*

*10. Sifarişçi dövlət ekoloji ekspertizasının keçirilməsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 29-cu və 30-cu maddələrində nəzərdə tutulmuş qaydada ərizə təqdim edir. Ərizəyə aşağıdakı sənədlər əlavə edilir ~~(müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) özü həmin sənədlər barədə məlumatları "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 18.3-cü maddəsində göstərilən qaydada əldə edə bilmədikdə)~~:*[40]

*10.1. ərizəçi fiziki şəxs olduqda, şəxsiyyət vəsiqəsinin surəti;*

*10.2. ərizəçi fərdi sahibkar olduqda, şəxsiyyət vəsiqəsinin surəti və vergi ödəyicisi kimi uçota alınması haqqında şəhadətnamənin surəti;*

*10.3. ərizəçi hüquqi şəxs, xarici hüquqi şəxsin filialı, nümayəndəliyi olduqda, hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın surəti və vergi ödəyicisi kimi uçota alınması haqqında şəhadətnamənin surəti;*

*10.4. ərizədə qeyd olunan obyektin üzərində ərizəçinin mülkiyyət, istifadə və ya icarə hüququnu təsdiq edən sənədin surəti (əgər obyektin dövlət ekoloji ekspertizasının keçirilməsi istənilirsə);*

*10.5. torpaq sahəsindən mülkiyyət, istifadə və ya icarə hüququnu təsdiq edən sənəd;*

*10.6. dövlət ekoloji ekspertizasının maliyyələşdirilməsini təsdiq edən sənəd;*

*10.7. nəzərdə tutulan fəaliyyəti barədə məlumat (hər bir istehsalat və xidmət sahəsi göstərilməklə);*

*10.8. istifadə olunan avadanlıqların texniki sənədləri;*

*10.9. istehsalatda istifadə olunan əsas və köməkçi xammal növləri barədə məlumat;*

*10.10. istifadə olunan enerji növləri barədə məlumat;*

*10.11. müəssisədə su təchizatı və tullantı sularının axıdılması barədə məlumat (texniki şərt);*

*10.12. əmələ gələn tullantıların idarə olunması, o cümlədən istehsalat tullantılarının təkrar istifadəsinin mümkünlüyü və həcmi barədə məlumat;*

*10.13. dövlət ekoloji ekspertizası obyektləri üçün layihə sənədlərin hazırlanmasına sərf olunan maliyyə vəsaitinin məbləğinə və ya layihənin ümumi smeta dəyərinə dair sənəd (müqavilə);*

*10.14. ərazidə aparılmış mühəndisi-geoloji işlərin hesabatı.*

*10-1. Dövlət ekoloji ekspertizasının keçirilməsi üçün zəruri olan sənədlərin və ya məlumatla.ın Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda həmin sənədlər və ya məlumatlar sifarişçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatla.ın Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onlaın təqdim edilməsi sifarışçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya sifarişçi tərəfindən təmin edilir.*[41]

*11. Dövlət ekoloji ekspertizası bu Qanunun 54-cü maddəsinin birinci hissəsinin 2-ci bəndində göstərilən ƏMTQ sənədlərinə və 8-ci bəndində göstərilən ekoloji ekspertiza obyektlərinə münasibətdə həyata keçirildikdə bu hissənin 10.2-10.10-cu bəndlərində nəzərdə tutulan sənədlər və məlumatların təqdim edilməsi tələb olunmur.".*

*12. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) dövlət ekoloji ekspertizasının təşkili və həyata keçirilməsi, habelə ekoloji ekspertiza rəyinin verilməsi zamanı "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun, bu Qanunun və ətraf mühitin mühafizəsi ilə bağlı digər normativ hüquqi aktların tələblərinə riayət olunmasına nəzarəti təmin edir.*

~~M a d d ə 5 3 . **Dövlət ekoloji ekspertizasının əsasları**~~[42]

~~Dövlət ekoloji ekspertizası aşağıdakıları rəhbər tutur:~~

~~1. beynəlxalq hüquq öhdəlikləri;~~

~~2. qanunçuluq, elmi əsaslılıq, aşkarlıq prinsipləri, ekoloji, sosial, mühəndis-texnoloji, texniki, arxitektura-planlaşdırma, iqtisadi və başqa qiymətlərin inteqrasiyası prinsipləri;~~

~~3. təsərrüfat fəaliyyətinin ətraf mühitə təsirinin kompleks sosial-ekoloji-iqtisadi qiymətləndirilməsinin nəticələri~~.

~~4. bütün insanların sağlamlığı və rifahı üçün əlverişli ətraf mühitə malik olmaq hüququnu~~;

~~5. indiki və gələcək nəsillərin mənafeyi naminə ekoloji tarazlığın, genofondun və canlı təbiətin rəngarəngliyinin qorunub saxlanılmasını təmin etmək zərurətini;~~

~~6. təbiətdən tənzimlənməyən istifadənin potensial təhlükəsi prezumpsiyasını;~~

~~7. qəzaların baş verməsinin mümkünlüyünü;~~

~~8. ətraf mühitin qorunub saxlanılmasının cəmiyyətin inkişafının ayrılmaz tərkib hissəsi kimi qiymətləndirilməsini~~.

M a d d ə 5 4 . **Dövlət ekoloji ekspertizasının obyektləri**

Dövlət ekoloji ekspertizasının obyektləri aşağıdakılardır:

1. ölkə və iqtisadiyyat sahələri üzrə məhsuldar qüvvələrinin inkişafına və yerləşdirilməsinə dair dövlət və yerli proqramların layihələri *strateji sənədlərin layihələrinə dair strateji ekoloji qiymətləndirmə (SEQ) sənədləri*;[43]

*2. istehsal, sosial, ticarət, ictimai iaşə və digər xidmət obyektləri, infrastruktur obyektləri və komplekslərinin layihələri, onların konservasiyası, ləğv olunması, yeni texnika ilə təchiz edilməsi və genişləndirilməsi üzrə layihələr, texniki-iqtisadi əsaslandırılmalar (TİƏ), ətraf mühitə təsirinin qiymətləndirilməsi (ƏMTQ) və transsərhəd kontekstdə ətraf mühitə təsirin qiymətləndirilməsi sənədləri;*[44]

3. yeni texnikanın, texnologiyanın, materialların və maddələrin yaradılmasına, o cümlədən*idxalına və ixracına* dair sənədlər;[45]

4. ətraf mühitin mühafizəsi *sahəsində metodiki təlimatların və texniki normativ hüquqi aktların*layihələri;[46]

*5. ərazilərin kompleks ekoloji-tədqiqat materialları, ərazilərə xüsusi mühafizə statusunun verilməsi, ekoloji fəlakət zonalarının və fövqəladə ekoloji vəziyyətin elan olunmasının əsaslandırılması sənədləri, habelə həmin ərazilərin bərpası proqramları;*[47]

*6. regionların, ayrı-ayrı ərazilərin və təbiət komplekslərinin ekoloji vəziyyətinə dair sənədlər;*

7. müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən *təbiətdən (təbii ehtiyatlardan)* istifadəni nəzərdə tutan müqavilə (kontrakt) *və razılaşmaların layihələri;*[48]

*8. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən hallarda tikinti layihələrinin ekologiya bölməsi.*[49]

M a d d ə 5 5. ***Sifarişçinin və planlaşdırıcı orqanın vəzifələri***[50]

*1. Sifarişçinin və planlaşdırıcı orqanın vəzifələri aşağıdakılardır:*

*1.1. dövlət ekoloji ekspertiza obyektlərinə dair sənədləri bu Qanuna və "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tərtib etmək və vaxtında dövlət ekoloji ekspertizasına təqdim etmək;*

*1.2. dövlət ekoloji ekspertizasının həyata keçirilməsi üçün zəruri olan əlavə məlumatları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim etmək;*

*1.3. dövlət ekoloji ekspertizasının həyata keçirilməsini bu Qanunla müəyyən edilən qaydada maliyyələşdirmək;*

*1.4. dövlət ekoloji ekspertizasının həyata keçirilməsi zamanı elmi tədqiqat və axtarış işlərinin (əlavə axtarışlar, nəzarət ölçmələri, sınaq nümunələrinin götürülməsi, analizi və sair) aparılması tələb olunduqda, həmin işləri maliyyələşdirmək və onların həyata keçirilməsini təmin etmək.*

M a d d ə 5 6 . **Dövlət ekoloji ekspertizasının maliyyələşdirilməsi**

*1. Dövlət ekoloji ekspertizasının maliyyələşdirilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada dövlət büdcəsi və sənədlərin sifarişçisinin vəsaiti hesabına həyata keçirilir.*[51]

*2. Bu Qanunun 54-cü maddəsi ilə müəyyən edilən dövlət ekoloji ekspertizası obyektləri üzrə layihələrin həyata keçirilməsinə və*

*maliyyələşdirilməsinə yalnız ekoloji ekspertiza rəyi olduqda yol verilir.*

M a d d ə 5 7 . ***Dövlət ekoloji ekspertizasının rəyi***[52]

*1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) ekoloji ekspertiza obyekti üzrə layihələrin həyata keçirilməsinin mümkünlüyü və ətraf mühitə təsirlərin yol verilə bilən həddi barədə əsaslı nəticələrdən ibarət ekoloji ekspertiza rəyi verir.*
*2. Ekoloji ekspertiza rəyi "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada 5 (beş) il müddətinə verilir.*
*3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) verdiyi ekoloji ekspertiza rəylərinin "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 6.3.2-ci maddəsinə uyğun olaraq reyestrini aparır, onların rəsmi internet səhifəsində yerləşdirilməsini, habelə sifarişçiyə və aidiyyəti dövlət orqanlarına göndərilməsini təmin edir.*
*4. Ekoloji ekspertiza rəyinin ləğvi, bərpası, dayandırılması və dublikatının verilməsi "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanunu ilə müəyyən edilmiş qaydada həyata keçirilir.*
*5. Ekoloji ekspertiza rəyi "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 23.1.1-ci və 23.1.2-ci maddələrində göstərilənlərlə yanaşı aşağıdakı hallarda yenidən rəsmiləşdirilir:*
*5.1. şəxsin soyadı, adı, atasının adı dəyişdikdə;*
*5.2. ekoloji ekspertiza sənədlərində dəyişikliklər edildikdə;*
*5.3. ətraf mühitin mühafizəsi sahəsində normativ və texniki normativ hüquqi aktlarda müəyyən edilmiş ekoloji tələblər dəyişdikdə;*
*5.4. rəyin qüvvədə olma müddəti başa çatdıqda.*
*6. Dövlət ekoloji ekspertizasının obyektləri barədə ekspert rəyinin verilməsinə görə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulur.*[53]

M a d d ə 5 8***. İctimai ekoloji ekspertizaya dair tələblər***

*1. İctimai ekoloji ekspertiza dövlət ekoloji ekspertizasının həyata keçirilməsindən asılı olmayaraq, ictimai ekoloji ekspertizanın təşkilatçılarının təşəbbüsü ilə təşkil olunur və həyata keçirilir.*
*2. İctimai ekoloji ekspertizanın aparılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.*
*3. İctimai ekoloji ekspertiza dövlət ekoloji ekspertizasından əvvəl və ya onunla eyni vaxta keçirilir.*
*4. İctimai ekoloji ekspertizanın təşkilatçıları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanı (qurumu) və bələdiyyəni ictimai ekoloji ekspertizanın keçirilməsinə 5 (beş) gün qalmış bu barədə yazılı məlumatlandırmalıdır.*
*5. Ekoloji ekspertiza obyektləri "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət sirri təşkil edən məlumatlara və ya qanunla qorunan digər məlumatlara aid edildikdə ictimai ekoloji ekspertizanın keçirilməsinə yol verilmir və bu barədə ictimai ekoloji ekspertizanın təşkilatçılarına məlumat verilir.*
*6. İctimai ekoloji ekspertiza rəyi tövsiyə xarakteri daşıyır.*
*7. İctimai ekoloji ekspertiza rəyi onun təşkilatçıları tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma), bələdiyyəyə, planlaşdırıcı orqana və sifarişçiyə təqdim edilir, habelə media ilə ictimaiyyətə çatdırılır.*[54]

M a d d ə 5 8-1. ***İctimai ekoloji ekspertiza sahəsində ictimai ekoloji ekspertizanın təşkilatçılarının vəzifələri və hüquqları***[55]

*1. İctimai ekoloji ekspertiza sahəsində ictimai ekoloji ekspertizanın təşkilatçılarının vəzifələri aşağıdakılardır:*
*1.1. ictimai ekoloji ekspertizanın həyata keçirilməsi zamanı bu Qanunun tələblərinə riayət etmək;*
*1.2. ictimai ekoloji ekspertizanın nəticələri barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma), bələdiyyəyə, planlaşdırıcı orqana və sifarişçiyə məlumat vermək.*
*2. İctimai ekoloji ekspertiza sahəsində ictimai ekoloji ekspertizanın təşkilatçıları aşağıdakı hüquqlara malikdirlər:*
*2.1. ekoloji ekspertizanın obyektinə dair sənədləri tam həcmdə almaq;*
*2.2. ekoloji ekspertizanın keçirilməsinə dair tələbləri müəyyən edən normativ hüquqi aktlarla, habelə texniki normativ hüquqi aktlarla tanış olmaq;*
*2.3. ekoloji cəhətdən zərərli obyektlərin yerləşdirilməsinə, tikintisinə və istismarına dair qərarların ləğv edilməsi, onların fəaliyyətinin məhdudlaşdırılması, dayandırılması və ya dəyişdirilməsi barədə aidiyyəti qurumlara müraciət etmək.*

I X f ə s i l

## EKOLOGİYA VƏ ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ SAHƏSİNDƏ TƏHSİL, MAARİFLƏNDİRMƏ, ELMİ TƏDQİQATLAR, STATİSTİKA VƏ İNFORMASİYA, *REKLAM SAHƏSİNDƏ ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ*[56]

M a d d ə 5 9 . **Ekoloji təhsil və maarifləndirmə**[57]

1. Əhalinin ekoloji təhsili və maarifləndirilməsi ilə bağlı münasibətlər müvafiq qanunla tənzimlənir.[58]
2. Ətraf mühitə zərərli təsir göstərən fəaliyyətlə bağlı olan vəzifəli şəxslər məcburi qaydada lazımi ekoloji hazırlığa və ətraf mühitin mühafizəsi sahəsində qanunvericiliyin əsaslarına dair biliklərə malik olmalıdırlar.[59]

M a d d ə 6 0 . **Ətraf mühitin mühafizəsi sahəsində elmi tədqiqatlar**

Ətraf mühitin mühafizəsi sahəsində elmi-tədqiqatların aparılması, mühəndis-konstruktor layihələrinin işlənilməsi və yaradılması məqsədilə qanunvericilikdə nəzərdə tutulmuş qaydada işlər aparılır.
Bu problemlərin həlli dövlət büdcəsi, digər mənbələr hesabına maliyyələşdirilir.

M a d d ə 6 1 . **Dövlət təbiət qoruq fondu**

Dövlət təbiət qoruq fondu-ekoloji, elmi-tədqiqat, nadir genetik mənşə, tədris və tarixi dəyərlərə malik olan ətraf mühit obyektlərinin məcmusudur.

Elmi, ekoloji, tarix və genetik dəyərlərə malik olan dövlət təbiət qoruq fondunun mühafizəsi onlardan istifadəyə məhdudiyyətlər və qadağalar yolu ilə təmin edilir.

M a d d ə 6 2 . **Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri** [60]

1. Xüsusi mühafizə olunan təbiət əraziləri ətraf mühitin mühafizəsi sahəsində xüsusi ekoloji, elmi, mədəni, estetik və sağlamlaşdırma əhəmiyyəti daşıyan təbiət komplekslərindən və obyektlərindən, nadir və nəsil kəsilmək təhlükəsi qarşısında olan fauna və flora növlərinin yayıldığı yerlərdən ibarət olan, təsərrüfat dövriyyəsindən tamamilə və ya qismən, daimi və ya müvəqqəti çıxarılan torpaq və su məkanı (akvatoriya) sahələri və onların üzərindəki atmosfer məkanıdır. [61]

2. Azərbaycan Respublikasında mühafizə məqsədləri və istifadənin xüsusiyyətlərinə görə fərqlənən aşağıdakı xüsusi mühafizə olunan təbiət ərazilərinə aşağıdakı status verilir:

2.1. dövlət təbiət qoruqları, o cümlədən biosfer qoruqları;

2.2. milli və təbiət parkları;

2.3. təbiət abidələri;

2.4. müvəqqəti təbiət qoruqları;

2.5. yasaqlıqlar;

2.6. zooloji parklar;

2.7. botaniki və dendroloji parklar;

2.8. müalicə-sağlamlaşdırma yerləri və kurortlar;

*2.9. geoloji parklar.*[62]

3. Azərbaycan Respublikasının qanunvericiliyi ilə xüsusi mühafizə olunan başqa təbiət ərazilərinin növləri də nəzərdə tutula bilər.

4. Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri beynəlxalq, respublika, bölgə və ya yerli əhəmiyyətli ola bilərMüalicə-sağlamlaşdırma yerləri və kurortlar beynəlxalq, ölkə və yerli əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinə aid edilə bilər.[63]

5. Xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılması qaydaları, mühafizə və istifadə rejimləri, onların fəaliyyətinin şərtləri Azərbaycan Respublikasının qanunvericiliyi və müvafiq normativ hüquqi aktları ilə müəyyən edilir.

M a d d ə 6 3 . **Ətraf mühitin mühafizəsi sahəsində dövlət statistikası**

Ətraf mühitin mühafizəsi sahəsində müvafiq icra hakimiyyəti orqanları tərəfindən statistik informasiyanın obyektivliliyi və onun beynəlxalq statistika ilə müqayisəliliyi əsasında dövlət statistikası aparılır.

Ətraf mühitin mühafizəsi sahəsində dövlət statistika hesabatı göstəricilərinin minimal tərkibi və dövlət statistikasının aparılması qaydaları qanunvericiliklə və digər normativ hüquqi aktlarla müəyyən edilir.

M a d d ə 6 4 . **Ətraf mühitin mühafizəsi sahəsində informasiya**

Ətraf mühitin mühafizəsi sahəsində informasiyaya ətraf mühitin vəziyyəti, onun çirklənməsinə, sağlamlaşdırılmasına və mühafizəsinə dair tədbirlərin maliyyələşdirilməsi, təbii resursların vəziyyəti, bərpası və istifadəsi, ətraf mühitə təsirlər, ətraf mühitin keyfiyyətinin normalaşdırılması, təsərrüfat və başqa fəaliyyətlərə ekoloji tələblər aiddir.

Ətraf mühitin mühafizəsi sahəsində informasiyanın alınması ilə əlaqədar bütün məsələlər "Ətraf mühitə dair informasiya almaq haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həll edilir. [64]

***Maddə 64-1. Reklam sahəsində ətraf mühitin mühafizəsi***[65]

*64-1.1. "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, ətraf mühit üçün təhlükə potensialı olan əmtəələrin və hərəkətlərin reklamı qadağandır. Ətraf mühit üçün təhlükə potensialı olan reklamı qadağan olunan əmtəələrin siyahısını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.*

*64-1.2. Reklam ətraf mühitə ziyan vura biləcək hərəkətlərə təhrik etməməlidir. Reklamda əmtəənin ətraf mühitə mənfi təsiri barədə məlumatların qəsdən gizlədilməsinə yol verilmir.*

## X X f ə s i l

## FÖVQƏLADƏ EKOLOJİ ŞƏRAİT VƏ EKOLOJİ FƏLAKƏT ZONALARI

M a d d ə 6 5 . **Fövqəladə ekoloji şərait**

1. Fövqəladə ekoloji şərait - təbiətin qarşısıalınmaz qüvvələrinin və sənaye qəzalarının təsiri nəticəsində ətraf mühitdə ekoloji tarazlığın pozulması ilə insan həyatı və sağlamlığı, bitki və heyvanlar aləmi üçün təhlükəli mühitin yaranması ilə səciyyələnən fəlakət şəraitdir.

2. Təbii fəlakətlər, böyük ekoloji və başqa qəzalar baş verdikdə müvafiq qanunvericiliyə uyğun Azərbaycan Respublikasının ayrı-ayrı ərazilərində fövqəladə ekoloji vəziyyət tətbiq edilir.

3. Fövqəladə ekoloji şəraitdə müvafiq ərazilərdə təsərrüfat fəaliyyətinin və təbiətdən istifadənin növü qadağan edilə və ya məhdudlaşdırıla bilər. Təbii resursların və ətraf mühitin bərpası, əhalinin qanunvericiliklə müəyyən edilmiş sosial müdafiəsi üzrə operativ tədbirlər görülür.

*4. Ətraf təbii mühit üçün təhlükə yaradan fövqəladə hadisə baş verdikdə, bu maddədə qeyd olunanlarla yanaşı, mülki müdafiə haqqında qanunvericiliklə nəzərdə tutulmuş digər müvafiq tədbirlərin də görülməsi zəruridir.*[66]

M a d d ə 6 6 . **Ekoloji fəlakət zonaları**

1. Əlverişli olmayan ekoloji vəziyyət nəticəsində əhalinin sağlamlığına əhəmiyyətli dərəcədə zərər vurularsa və (və ya) təbii ekoloji sistemlərin dağıdılması, floranın və faunanın məhvi ilə bağlı olan sabit və bərpası mümkün olmayan dəyişikliklərin baş verdiyi ərazi hissələri, su hövzəsi və hava fəzası hissələri ekoloji fəlakət zonaları elan edilir.

2. Ekoloji fəlakət zonaları fövqəladə ekoloji şəraitin ağırlığından və ya onu şərtlərindən amillərdən asılı olaraq kiçik zonalara (ekoloji fəlakət, ekoloji tənəzzül, ekoloji tənəzzül ərəfəsi və s.) bölünür.

3. Kiçik ekoloji fəlakət zonaları üzrə təbii resursların bərpasına, ətraf mühitin sağlamlaşdırılmasına, əhaliyə tibbi yardımın göstərilməsinə dair tədbirlər müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş proqramlara əsasən həyata keçirilir.

M a d d ə 6 7 . **Ekoloji fəlakət zonalarında görülən tədbirlər**

Ekoloji fəlakət zonalarında aşağıdakı təxirəsalınmaz tədbirlər görülməlidir:
əlverişli olmayan ekoloji şəraiti yaradan təsərrüfat fəaliyyətini dayandırmaq;
insanın sağlamlığına və ətraf mühitə zərərli təsir göstərən təşkilatların istehsal fəaliyyətini müvəqqəti dayandırmaq;
təbiətdən istifadənin ayrı-ayrı sahələrini məhdudlaşdırmaq;
zəruri hallarda insanların köçürülməsinə dair işlər aparmaq.

M a d d ə 6 8 . **Fövqəladə ekoloji fəlakətdən zərərçəkənlərin sosial müdafiəsi**

Fövqəladə ekoloji fəlakət nəticəsində zərər çəkən və həmçinin ekoloji təhlükəli zonalarda yaşayan vətəndaşlar, onlara dəymiş zərərin ödənilməsi hüququna, o cümlədən müavinətlərin, güzəştlərin və sosial müdafiənin digər növləri üzrə kompensasiya almaq hüququna malikdir.

Fövqəladə ekoloji fəlakətin nəticələrinin zərərçəkənlərə aid edilməsi qaydaları, onların sosial müdafiəsi qanunvericiliklə müəyyən edilir.

M a d d ə 6 9 . **Fövqəladə ekoloji vəziyyət və ekoloji fəlakət zonalarının elan edilməsi qaydaları**

Təbii fəlakətlər, böyük ekoloji və başqa qəzalar baş verdikdə qanunvericiliyə uyxun olaraq Azərbaycan Respublikasının ayrı-ayrı ərazilərində fövqəladə ekoloji vəziyyət tətbiq edilir.

Ekoloji fəlakət zonalarının sərhədlərinin müəyyən edilməsi müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir.

X X I f ə s i l

## ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİNƏ NƏZARƏT

M a d d ə 7 0 . **Ətraf mühitin mühafizəsi sahəsində nəzarətin məqsəd və formaları**

Ətraf mühitin mühafizəsi sahəsində nəzarət təsərrüfat və başqa fəaliyyətlərin təsiri nəticəsində ətraf mühitin dəyişməsinin müşahidə edilməsi, onun sağlamlaşdırılması və mühafizəsi, təbii resursların bərpası və səmərəli istifadəsi, keyfiyyət normativlərinin və ekoloji tələblərin yerinə yetirilməsini nəzərdə tutur.

Azərbaycan Respublikasında ətraf mühitin mühafizəsi sahəsində dövlət, müəssisə (istehsalat) və ictimai nəzarət həyata keçirilir.

M a d d ə 7 1 . **Ətraf mühitin mühafizəsi sahəsində dövlət nəzarəti**

1. Ətraf mühitin mühafizəsi sahəsində dövlət nəzarətini müvafiq icra hakimiyyəti orqanları *bu Qanunun və "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq* həyata keçirirlər.[67]

2. Ətraf mühitin mühafizəsi sahəsində dövlət nəzarətini həyata keçirən *müvafiq icra hakimiyyəti orqanlarının* hüquqları:[68]

2.1. qanunvericilikdə müəyyən edilmiş qaydada mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq, müəssisə, idarə, təşkilatlara və digər obyektlərə, o cümlədən hərbi və müdafiə obyektlərinə maneəsiz (xidməti vəsiqələri, *sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərin obyektlərinə daxil olarkən, həmçinin yoxlamanın həyata keçirilməsi haqqında qərarın surətini və yoxlamanın sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrində qeydiyyata alınması barədə çıxarışı* təqdim etməklə) daxil olmaq, öz xidməti vəzifələrini yerinə yetirmək üçün zəruri olan sənədlərlə, o cümlədən analizlərin nəticələri ilə pulsuz tanış olmaq;[69]

2.2. ətraf mühitin mühafizəsi və sağlamlaşdırılması, təbii resursların bərpası və istifadəsi sahəsində tədbirləri yerinə yetirmək, ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyinə keyfiyyət normativlərinə və ekoloji tələblərinə əməl etmək, tənzimləyici və başqa zərərsizləşdirici qurğuların, onların nəzarət vasitələrinin işini yoxlamaq;

2.3. təbii ehtiyatlardan istifadə və ətraf mühitin mühafizəsi sahəsində ayrı-ayrı fəaliyyət növlərinin həyata keçirilməsi üçün verilən *lisenziyanın və icazənin*, təbiətdən istifadə müqavilələrinin (kontraktların) və *lisenziyaların və icazələrin* şərtlərinə əməl edilməsini yoxlamaq, qanunvericiliyə uyğun olaraq *onların dayandırılması və ya ləğvi barədə qərar qəbul etmək*;[70]

2.4. dövlət ekoloji ekspertizasının nəticələrinin yerinə yetirilməsinə nəzarət etmək;

2.5. ekoloji tələblərin və ətraf mühitin keyfiyyət normativlərinin pozulması ilə həyata keçirilən ekoloji cəhətdən təhlükəli yüklərin (məmulatların), tullantıların və xammal ehtiyatların Azərbaycan Respublikasının ərazisinə gətirilməsinin və həmçinin onun ərazisindən tranzit yolu ilə aparılmasının qadağan olunması haqqında qanunvericiliyə uyğun olaraq sərəncamlar vermək;

2.6. ətraf mühitin mühafizəsi sahəsində pozuntuların aradan qaldırılmasına dair fiziki və hüquqi şəxslərə tələblər irəli sürmək;

2.7. ekoloji tələblərin pozulması ilə əlaqədar müəssisələrdə, qurğu və obyektlərdə həyata keçirilən işlərin məhdudlaşdırılması və müvəqqəti dayandırılması, o cümlədən maliyyələşdirilməsinin dayandırılması, onların istismara verilməsinin qadağan edilməsi, təsərrüfat və başqa fəaliyyətlərin *dayandırılması və ya qadağan edilməsi barədə qərar qəbul etmək*;[71]

2.8. qanunvericilikdə müəyyən edilmiş qaydada ətraf mühitin mühafizəsi sahəsində inzibati xətalar haqqında işlərə baxmaq, təqsirkarların inzibati və ya cinayət məsuliyyətinə cəlb edilməsi barədə materialları müvafiq orqanlara göndərmək;[72]

2.9. ətraf mühitin mühafizəsi sahəsində qanunvericiliyin pozulması nəticəsində vurulmuş zərərin həcmlərini müəyyən etmək (müəyyən edilməsində iştirak etmək) və bunun əsasında təqsirkar olan şəxslərə bu zərərin könüllü ödənilməsi barədə tələblər irəli sürmək və ya iddiaları məhkəməyə təqdim etmək;

2.10. ətraf mühitin mühafizəsi sahəsində müəssisə (istehsalat) nəzarəti qaydalarının və normalarının gözlənilməsini yoxlamaq;

2.11. qanunvericiliklə müəyyən edilmiş digər hüquqlardan istifadə etmək.

3. Ətraf mühitin mühafizəsi sahəsində dövlət *nəzarətinin həyata keçirilməsi ilə əlaqədar verilmiş qərarların* icrası bütün hüquqi və vəzifəli şəxslər, vətəndaşlar üçün məcburidir və onlardan *inzibati və* məhkəmə qaydasında şikayət edilə bilər.[73]

M a d d ə 7 2 . **Ətraf mühitin mühafizəsi sahəsində müəssisə (istehsalat) nəzarəti**

Ətraf mühitin mühafizəsi sahəsində müəssisə (istehsalat) nəzarəti müvafiq icra hakimiyyəti orqanları tərəfindən təsdiq edilən əsasnamələrə uyğun həyata keçirilir.

M a d d ə 7 3 . **Ətraf mühitin mühafizəsi sahəsində ictimai nəzarət**

Ətraf mühitin mühafizəsi sahəsində ictimai nəzarət təbiətdən istifadəçilərlə müvafiq icra hakimiyyəti orqanları arasında müqavilələr üzrə ictimai birliklər tərəfindən onların təşəbbüsü ilə həyata keçirilir.

İctimai nəzarətin aparılması qaydaları ictimai birliklər tərəfindən onların nizamnaməsinə uyğun müəyyən edilir.

M a d d ə 7 4 . **Ətraf mühitin mühafizəsi sahəsində nəzarəti həyata keçirilən şəxslərin müdafiəsi**

Ətraf mühitin mühafizəsi sahəsində dövlət nəzarətini həyata keçirən vəzifəli şəxslərin bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından sığortası "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq icbari qaydada həyata keçirilir.[74]

Ətraf mühitin mühafizəsi sahəsində nəzarəti həyata keçirən şəxslərin xüsusi vasitələr və odlu silah saxlaması, gəzdirməsi, onlardan istifadə hüququ və qaydaları müvafiq qanunvericiliklə müəyyən edilir.

X X I I f ə s i l

## EKOLOJİ AUDİT VƏ ONUN HƏYATA KEÇİRİLMƏSİ

M a d d ə 7 5 . **Ekoloji audit**

1. Ekoloji audit - təbii resursların istifadəsi və bərpası üzrə hesabatların düzgün tərtib edilməsi də daxil olmaqla, təbiətdən istifadəçi tərəfindən ekoloji tələblərin, ətraf mühitin mühafizəsi normalarının və qaydalarının gözlənilməsi məqsədilə onların təsərrüfat və digər fəaliyyətinin müstəqil yoxlanılmasıdır.

2. Ekoloji audit təbiətdən istifadəçi ilə ekoloji auditor arasında bağlanmış müqaviləyə əsasən aparılır. Qanunvericiliklə müəyyən edilmiş hallarda ekoloji audit məcburidir.

3. Ekoloji auditor məsləhəti - ekoloji auditorun ətraf mühitin mühafizəsi və onun keyfiyyətinin yaxşılaşdırılması, təbii resursların səmərəli və qənaətlə istifadəsi, bərpası, təbiətdən istifadəçi tərəfindən ekoloji tələblərə, ətraf mühitin mühafizəsi normalarına və qaydalarına riayət edilməsi üzrə məsləhətlərin verilməsidir.

M a d d ə 7 6 . **Ekoloji auditor**

1. Ekoloji auditor - *"Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq alınmış akkreditasiya attestatına* əsasən ekoloji auditor fəaliyyəti göstərmək hüququna malik olan hüquqi və ya fiziki şəxslərdir.[75]

2. Ekoloji auditor fəaliyyəti göstərmək hüququ verən *akkreditasiya attestatı* müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilir.[76]

3. Xarici auditorlar və auditor təşkilatları ekoloji auditin aparılmasına və məsləhətlərin verilməsinə cəlb edilə bilər.

M a d d ə 7 7 . **Ekoloji auditin həyata keçirilməsi**

Ekoloji auditor fəaliyyətinin, ekoloji auditorların attestasiyasının, ekoloji auditin aparılması qaydaları və şərtləri, ekoloji auditorların məsuliyyəti, hüquqları və vəzifələri qanunvericiliklə müəyyən edilir.

X X I I I f ə s i l

## ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ HAQQINDA QANUNVERİCİLİYİN POZULMASINA GÖRƏ MƏSULİYYƏT, MÜBAHİSƏLƏRİN HƏLLİ

M a d d ə 7 8 . **Ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət**

Ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulmasında təqsirkar olan hüquqi və fiziki şəxslər, o cümlədən vəzifəli şəxslər Azərbaycan Respublikasının Mülki, İnzibati Xətalar və Cinayət məcəllələrində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar.[77]

M a d d ə 7 9 . **Ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulması nəticəsində vurulan zərərin ödənilməsi**

1. Ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulması nəticəsində ətraf mühitə, insanların sağlamlığına, təşkilatların, vətəndaşların və dövlətin mülkiyyətinə (əmlakına) zərər vurmuş hüququ və fiziki şəxslər qüvvədə olan qanunvericiliyə uyğun vurulmuş zərər ödəməlidirlər.

2. Ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulması nəticəsində vurulan zərərin ödənilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş məzənnələr və metodlarla hesablanma qaydalarına uyğun könüllü və ya məhkəmənin qərarı əsasında, bu hallar olmadıqda isə itkilər nəzərə alınmaqla, ətraf mühitin pozulmuş vəziyyətinin bərpasına lazım olan faktiki xərclər həcmində həyata keçirilir.

3. Zərərin ödənilməsinə görə alınan məbləğlər ətraf mühitin mühafizəsi fondlarına, qanunvericiliklə müəyyən edilmiş hallarda isə zərər çəkmiş hüquqi və ya fiziki şəxsin hesabına köçürülür.

4. Ətraf mühitə təhlükəli təsir edən fəaliyyətlə məşğul olan hüquqi və fiziki şəxslər, onların təqsiri müəyyən edildikdə ətraf mühitə vurulmuş zərəri ödəməlidirlər.

5. Ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulması nəticəsində vətəndaşların həyatına və əmlakına vurulmuş zərər, zərər çəkənin əmək qabiliyyətinin itirilməsi dərəcəsi, onun müalicəsi və sağlamlığının bərpası üçün tələb olunan xərclər və itkilər nəzərə alınmaqla tam həcmdə ödənilməlidir.

6. Vətəndaşların sağlamlığına və əmlakına vurulmuş zərərin həcminin müəyyən edilməsi qüvvədə olan qanunvericiliyə uyğun, zərərin ödənilməsi isə məhkəmənin qərarı əsasında həyata keçirilir.

7. Ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulması nəticəsində vurulmuş zərər Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada ödənilir.

M a d d ə  8 0 . **Ətraf mühitin mühafizəsi sahəsində mübahisələrin həlli qaydaları**

Ətraf mühitin mühafizəsi sahəsində mübahisələr məhkəmələrlə və ya Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada həll edilir.

X X I V  f ə s i l

## ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ SAHƏSİNDƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

M a d d ə  8 1 . **Ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq əməkdaşlıq**

Azərbaycan Respublikası ekoloji təhlükəsizliyin üstünlüyünün gözlənilməsi prinsiplərini rəhbər tutaraq ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq əməkdaşlığı həyata keçirir.

M a d d ə  8 2 . **Ətraf mühitin mühafizəsi sahəsində Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilələr**

Ətraf mühitin mühafizəsi sahəsində Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilələrdə Azərbaycan Respublikasının qanunvericiliyindən fərqli normalar müəyyən edildikdə beynəlxalq müqavilələrin qaydaları tətbiq edilir.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 8 iyun 1999-cu il
678-IQ

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 27 fevral 2001-ci il tarixli 94-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, 3, maddə 148**)
2. 19 aprel 2002-ci il tarixli 308-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, 5, maddə 238**)
3. 25 mart 2003-cü il tarixli 429-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, 4, maddə 178**)
4. 30 dekabr 2003-cü il tarixli 568-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 2, maddə 57**)
5. 5 mart 2004-cü il tarixli 600-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 4, maddə 201**)
6. 25 dekabr 2007-ci il tarixli 524-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 2, maddə 47**)
7. 30 sentyabr 2009-cu il tarixli **882-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 5 noyabr 2009-cu il, 247, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 10, maddə 796**)
8. 1 fevral 2013-cü il tarixli **553-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu ( **"Respublika" qəzeti 12 mart 2013-cü il, 55; "Azərbaycan" qəzeti, 16 mart 2013-cü il, 59, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 03, maddə 209** )
9. 4 aprel 2014-cü il tarixli **932-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 23 aprel 2014-cü il, 82, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 04, maddə 338**)
10. 30 sentyabr 2014-cü il tarixli **1032-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 04 noyabr 2014-cü il, 240 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 10, maddə 1152**)
11. 11 noyabr 2016-cı il tarixli **398-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 25 dekabr 2016-cı il, 287 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 12, maddə 2011**)
12. 30 dekabr 2016-cı il tarixli **479-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 22 fevral 2017-ci il, 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 02, maddə 142**)
13. 14 aprel 2017-ci il tarixli **590-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 7 iyun 2017-ci il, 121, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 6, maddə 1013**)
14. 12 iyun 2018-ci il tarixli **1176-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 8 iyul 2018-ci il, 149 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, I kitab maddə 1398**)
15. 28 dekabr 2018-ci il tarixli **1403-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 31 yanvar 2019-cu il, 24 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 01, maddə 20**)
16. 24 aprel 2020-ci il tarixli **55-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 16 may 2020-ci il, 95, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 5, maddə 511**)
17. 24 aprel 2020-ci il tarixli **56-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 16 may 2020-ci il, 95, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 5, maddə 512**)
18. 1 may 2020-ci il tarixli **71-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 1 iyun 2020-ci il, 102, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 5, maddə 521**)
19. 12 iyun 2020-ci il tarixli **129-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 5 avqust 2020-ci il, 151 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 842**)
20. 26 noyabr 2020-ci il tarixli **207-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 6 yanvar 2021-ci il, 1 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 12, I kitab, maddə 1431**)
21. 3 dekabr 2021-ci il tarixli **416-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 31 dekabr 2021-ci il, 286, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1315**)

22. 20 dekabr 2022-ci il tarixli **738-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 7 fevral 2023-cü il, "Azərbaycan" qəzeti, 8 fevral 2023-cü il, 28, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, 2, maddə 191**)

